*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (1) 2025*

***Olgu Sunumu***| **Case report**
***Geliş tarihi |Received:25.10.2024***
***Kabul tarihi |Accepted:25.11.2024***
***Yayın tarihi |Published:25.12.2024***

**Sevinc Vəliyeva**

***https://orcid.org/0009-0000-0710-6324***
*Doctor of Pedagogy, Head of Psychology Department, Teachers' Institute, Department of Pedagogy and Literature, Azerbaijan, veliyeva_1979@bk.ru*

***Atıf Künyesi | Citation Info***

Vəliyeva, S. (2025). Kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına məhəbbət hisslərinin formalaşdırılması. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (1), 4799-4806.

# Kiçikyaşlı məktəblilərdə Azərbaycanın flora və faunasına məhəbbət hisslərinin formalaşdırılması

***Xülasə***

*Ölkəmizdə yetişən nəsli təbiətin flora və faunasına qayğıkeş münasibət bəsləməyi təlqin edən bir sıra tədbirlər həyata keçirilir. Bu sahədə məqsədyönlü, planlı və mütəşəkkil işləri, o cümlədən ekologiya sahəsində aparılan islahatları qeyd etmək mümkündür. Azərbaycanda təbii mühitin qorunması dövlətin ən vacib siyasi, iqtisadi və sosial vəzifələrinə aid edilir. Bununla yanaşı, respublikamızda ekoloji problemlərin həlli sahəsində beynəlxalq təşkilatların da fəaliyyəti xeyli genişlənmişdir. Azərbaycan Respublikasının həm Avropa, həm də Asiya ölkələrindəki ekologiya təşkilatları ilə müntəzəm əlaqələri mövcuddur. Həmin əlaqələr müxtəlif tədbirlər yolu ilə məqsədyönlü, planlı və mütəşəkkil olaraq həyata keçirilir.*

***Açar sözlər***: *Kiçikyaşlı Məktəblilər, Azərbaycanın Flora Və Faunası, Təbiətə Qayğıkeş Münasibət, Flora və Faunaya Məhəbbət, Hisslərinin Formalaşdırılması*

BY NC
Creative Commons Licence

# Creation of feelings of love for plant and animal species of Azerbaijan in young schoolchildren

***Abstract***

*A number of measures are being implemented in our country to instil in the younger generation a sensitive attitude towards the plants and animals of nature. It is possible to observe targeted, planned and organised work in this field, including reforms in the field of ecology. Protection of the natural environment in Azerbaijan is recognised as one of the most important political, economic and social tasks of the state. At the same time, the activities of international organisations in the field of solving environmental problems in our Republic have significantly expanded. The Republic of Azerbaijan has regular relations with environmental organisations in both European and Asian countries. These relations are carried out in a purposeful, planned and organised manner through various measures.*

***Keywords:*** *Young schoolchildren, flora and fauna of Azerbaijan, compassionate attitude towards nature, love for flora and fauna, formation of feelings*

## Giriş

Ekoloji mühitin qorunması, təbiətə qayğıkeş münasibətin formaslaşdırılması, böyüyən nəslin ekoloji tərbiyəsinin formalaşdırılması son dərəcə aktualdır. I-IV siniflərin Azərbaycan dili dərslərində kiçikyaşlı məktəblilərə Azərbaycanın flora və faunasına rəğbət, hörmət, məhəbbətin aşılanmasına, təbiətə, onun gözəlliklərinə qayğıkeş münasibətin tərbiyə olunmasına kömək göstərə biləcək nağılların tərbiyələndirici, təhsilləndirici və inkişafetdirici imkanlarından faydalanmaq lazımdır. I-IV siniflərin Azərbaycan dili dərslərində tapmacalardan istifadə də flora və faunamıza, təbiətimizin gözəlliklərinə, təbiətə qayğıkeş münasibətin tərbiyə edilməsinə çox kömək göstərir. Kiçikyaşı məktəblilərə bitki və heyvanat aləminə dair tapmacalar təqdim oluna bilər. Məsələn: (müəllim-şagird):

Müəllim: -Gəlin tapaq:

Ağacın tutmaq olmaz,
Ətrindən doymaq olmaz...

Şagird: Qızızgül

I-IV siniflərin Azərbaycan dili dərslərində şagirdlərdə ölkəmizinn flora və faunasına, təbiətə qayğıkeş münasibətin bərqərar olmasında şairlərimizin şeirlərindən də faydalanmaq mümkündür.

### 1. Musiqi ve Kiçikyaşlı Məktəblilər

Biz problem baxımından musiqi dərsliklərini araşdırdıq. I sinfin “Musiqi” dərsliyi aşağıdakı bölmələrdən ibarətdir: “Musiqi aləmi”, “Melodiya”, “Ritm”, “Melodiya, ritm və temp”, “Könül açan nəğmələr”. Təbiətə, onun gözəlliklərinin vəsfinə, düzlərimizin, meşələrimizin, dağlarımızın, “durna gözlü” bulaqlarımızın, meyvəmizin, gül-çiçəklərimizin,

şəfalı (dərman) bitkilərimizin ecazkarlığından söz açan heç bir mahnının adı çəkilmir. Lakin I sinfin dərsliyində “Könül açan nəğmələr” bölməsi üzrə “Nəğməli bahar”, “Gözəl məkan Azərbaycan”, “Hər birimiz bir çiçək”, “Güllərin rəqsi”, “Uşaqların nəğməli dünyası” mövzuları özünə yer almışdır. Həmin mövzuların imkanlarından faydalanmaq mümkündür. Bölmənin adına (“Könül açan nəğmələr”) əsaslanaraq dərsdə dərslikdə adı çəkilməyən, lakin təbiətin gözəlliklərini ifadə edən mahnı səsləndirilə, onun barəsində məlumat verilə bilər. II sinfin “Musiqi” dərsliyindəki bölmələrə aşağıdakı adlar verilmişdir: “Mahnı janrı”, “Marş janrı”, “ “Melodiya, ritm, temp”, “Lad, ölçü, dinamika”, “Musiqidə məzmun və forma”, “Konsert zalında”. Bu sinfin dərsliyində də təbiət haqında mahnılar barədə məlumatın verilməsi, bu və digər uyğun mahnının səsləndirilməsi nəzərdə tutulmamışdır. Lakin bəzi bölmələr üzrə bur sıra mövzuların imkanlarından istifadə etmək olar. Diqqət yetirək:
“Mahnı janrı” bölməsi üzrə “Vətənpərvər mahnılar”, “Əmək mahnıları”, “Laylalar”, “Mahnı oyunlar.” III sinfin “Musiqi” dərsliyi də diqqət mərkəzimizdə oldu. Dərsliyin bölmələri bunlardır: “Bayram musiqisi”, “Mahnıların ritmik müşayiəti”, “Musiqi forması”, “Musiqi təəssüratları”, “Musiqi alətləri”, “Kino musiqisi”, “Konsert zalında”, IV sinfin “Musiqi” dərsliyində aşağıdakı bölmələr öz əksini tapmışdır: “Musiqi kollektivləri”, “Musiqi əsərlərinin melodiyaları”, “İkisəsli musiqi”, “Musiqi və incəsənətin başqa növləri”, “Musiqili şəkillər”, “Konsert zalında”, “Gözəl məkan Azərbaycan”, “Hər birimiz bir çiçək”, “Güllərin rəqsi”, I sinifdə musiqi dərsində “Könül açan nəğmələr” bölməsi üzrə “Uşaqların nəğməli dünyası” mövzusu keçilərkən **“**Salam, Payız” mahnısı səsləndirilə bilər (Söz, mus: Nüşabə Nuri, layihə rəhbəri: Zaur Ali Lyrics)

Bu gözəl mahnı kiçikyaşlı məktəblilərdə təbiətə, onun fəsillərindən biri olan payıza, təbiətimizin gözəlliklərinə rəğbət və məhəbbət hisslərini qüvvətləndirməyə, eyni zamanda təbiətə qayğılı münasibətin daha da güclənməsinə imkan verir. Diqqətəlayiq uşaq mahnılarından biri də musiqisi M. Əlibəyliyə, sözəril Z. Ağayevaya məxsus “Yeddi çiçək, yeddi gül” mahnısıdır. İfa edir: “Kəpənəklər qrupu”.

Şagirdlərə anlatmaq lazımdır ki, şən əhval-ruhiyyəyə, xoş əhvala yiyələnmək üçün təbiətin ən gözəl nemətlərindən, floramızın mühüm nümunələrindən biri olan güllərin, çiçəklərin rolu böyükdür. Odur ki, gülləri sevmək, onları qorumaq, artırmaq lazımdır. Gülü, çiçəyi sevməyən adama rast gəlmək olmaz. Odur ki, onlara qayğı ilə yanaşmaq lazımdır.

“Dünya gözəldir” mahnısı:




Qeyd etdiyimiz kimi, ibtidai siniflərdə tədris edilən fənlər içərisində şagirdlərdə Azərbaycanın florasına və faunasına rəğbət, məhəbbət, qayğıkeş münasibətin, bitki və heyvanat aləmin mühafizəsini öz borcu, vəzifəsi hesab etməkdə şagirdlərə kömək göstərəcək fənlərdən biri də həyat bilgisi ***(“Познание мира*»)** fənnidir. Bu fənn üzrə dərsliklərin hər birində haqqında danışılan problemin həllinə xidmət edən çoxsaylı mövzular vardır. I sinfin həyat bilgisi dərsliyində bölmələrin aşağıdakı şəkildə planlaşdırılması məqsədəuyğun hesab edilmişdir: “Mən kiməm”, “Sağlamlıq”, “İnsanlar və əşyalar”, “Ətraf mühit”, “Ehtiyatlı davranaq.” Yuxarıdakı bölmələrdən əsasən “Ətraf mühit” bölməsi bu və ya digər dərəcədə məktəblilərdə Azərbaycanın bitki və heyvanat aləminə, ətraf mütitə, təbiətə həssaslıq və rəğbət hisslərinin aşılanmasına özköməyini göstərir. Bu fikir baxımından “Ətraf mühit” bölməsi üzrə “Ətrafı necə öyrənirik, “Səs haradan gəlir”, “Bu gün hava necədir”, “Fəsillər bizə necə təsir edir”, “Canlı və cansız”, və “Necə yaşamaq lazımdır” mövzuları (s. 55-58), eyni zamanda “Ehtiyatlı davranaq” bölməsi üzrə “Seldən necə qorunmaq olar” mövzusu (s. 63-65) imkanlar açır. II sinif “Həyat bilgisi” dərsliyində “Mən və məktəbim”, “Dəyərlər və sağlamlıq”, “Materiallar və təhlükəsizlik”, “Yer kürəsi”, “Canlılar”, “Ehtiyatlı davranaq” bölmələri verilmişdir. Həmin bölmələr arasında “Yer kürəsi” və “Canlılar” bölmələri bu və ya digər dərəcədə tərbiyə işlərinin aparılmasına şərait yaradır. Belə ki, Yer kürəsi” mövzusu üzrə - “Yaşayış yeri”, “Canlılar” bölməsi üzrə - “Heyvanları tanıyaq”, “Canlıların çoxalması və böyüməsi”, “Bitkiləri tanıyaq”, “Bitkilərin böyüməsi üçün nə etmək lazımdır” mövzulardan faydalanmaq mümkündür. III sinif üzrə bölmələr: “Canlı həyat”, “Ailə, cəmiyyət, ünsiyyət”,

"Hərəkət və istiqamət", "Sağlamlıq və təhlükəsizlik". "Canlı həyat"dan savayı digər bölmələr III sinif şagirdlərində təbiətə qayğıkeş münasibətin tərbiyələndirməsi üçün bilavasitə material vermir. "Canlı həyat" bölməsinin aşağıda adları çəkiləcək mövzuları isə bilavasitə və bilvasitə təbiətə məhəbbət, ona qayğıkeş münasibətin formalaşdırması baxımından imkanlar açır: "Canlılar və cansızlar", "Canlıların qidalanması", "Canlılar və həyat", "Torpaq" (s. 18-21, mövzu 4); Bitkilərin yayılması (mövzu 5, s. 22-25); "Bitkilərin qruplaşdırılması (s. 26-29, mövzu 6), "Heyvanların qruplaşdırılması " (mövzu 7, s. 30-32). IV sinfin "Həyat bilgisi" dərsliyində isə, "Canlı həyat" bölməsi üzrə "Bitkilərin həyatımızda rolu", "Heyvanların həyatımızda rolu", "Sağlamlığımızın qayğısına qalaq", "Mühit amillərinin canlılara təsiri" mövzularının köməyilə IV sinif şagirdlərində Azərbaycanın flora və faunasına, təbiətinə qayğıkeş münasibətin formalaşdırılması üzrə müəyyən tərbiyəvi işlər aparmaq olar. Bu məqsədlə Zəlimxan Yaqubun "Axar su" şeiri zəngin material verir. Təcrübə və müşahidələrdən görünür ki, bəzi ibtidai sinif müəllimləri haqqında danışılan mövzuların tədrisi zamanı həmin mövzularda güllər, çiçəklər, ağaclar, meyvələr, çaylar, göllər, dənizlər, yaşıl çəmənlər, çiçəkli bağçalar haqqında verilən informasiyaları daha çox estetik tərbiyə ilə bağlayır, informasiyaları şagirdlərin estetik-bədii zövqlərinin formalaşdırılması baxımından istiqamətləndirirlər. Halbuki unudurlar ki, mövzuların hər birində kiçikyaşlı məktəblilərdə Azərbaycanın zəngin flora və faunasına məhəbbəti, təbiətə qayğıkeş münasibəti tələbata çevirən son dərəcə gərəkli komponentlər vardır. Həmin komponentlər eyni zamanda kiçikyaşlı məktəblilərdə ekoloji mədəniyyətin formalaşdırılmasına yönəldilə bilər.Təəssüf ki, bəzi sinif müəllimləri bu mövcud imkanlardan faydalanmırlar. İbtidai sinif müəllimləri Azərbaycan dili, həyat bilgisi və musiqi fənləri üzrə mövzuların hər birinin köməyi ilə və əlavə materiallardan istifadə etməklə kiçikyaşlı məktəbliləri floramız və faunamız haqqında biliklərlə silahlandırılması, təbiətimizə və onun gözəlliklərinə həssas və qayğıkeş münasibətin yaradılması, təbiətimizin gözəlliklərinə və zənginliyinliklərinə görə iftixar hissi keçirmək kimi zəruri hissləri formalaşdırmaq üçün məqsədyönlü, planlı, mütəşəkkil işlər həyata keçirməlidirlər. Ayrı-ayrı mövzuların köməyilə şagirdlərin hər birində təbiətə qayğıkeş münasibətin formalaşmasına tələbat yaranır. Şagirdlərə flora və faunamıza, təbiətə, onun gözəlliklərinə qayğıkeş münasibətin aşılanması kimi mühüm işə ibtidai siniflərdən başlamaq lazımdır. Bu sahədə təlim-tərbiyə işlərini yüksək səviyyədə apara bilmələri üçün sinif müəllimləri ilk növbədə özləri Azərbaycanın flora və faunası ilə yaxından tanış olmalı, təkcə I-IV siniflərin Azərbaycan dili, musiqi, həyat bilgisi dərsliklərində verilmiş mətnlərlə kifayətlənməməli, əlavə materiallardan - şifahi xalq ədəbiyyatımızdan, mütəfəkkirlərin bitkilər və heyvanlar aləmi, təbiətimizin gözəllikləri və onların mühafizəsi ilə

bağlı söylədiklərindən, hekayə, şeir, nağıl, əfsanə, tapmağa, nəğmə, mahnı və bayatılardan faydalanmalıdırlar.

Kiçikyaşlı məktəblilərdə flora və faunamıza, təbiətimizə qayğıkeş münasibəti formalaşdırmaq üçün ilk növbədə onlarda inam yaradılmalıdır, onlara maraq aşılanmalıdır. Bu işin vacibliyinə tələbat yaranmasa, aparılan tərbiyə işlərinin səmərəsi az olar. Təbiətə qayğıkeş münasibətin vacibliyi, təbiəti qorumağın əhəmiyyəti aydınlaşdırılmalı, şagirdlərə ekoloji böhran, ekoloji fəlakətlər barədə, ekoloji mühit, ətraf mühitin mühafizəsi ilə bağlı məlumatlar çatdırılmalıdır. Qeyd etmək lazımdır ki, ekoloji tərbiyə son zamanlar elmi pedaqogikada tərbiyənin tərkib hissələrindən biri kimi özünə yer almışdır. Lakin unutmaq olmaz ki, şifahi xalq yaradıcılığı nümunələrində və klassik yazıçı və şairlərimizin əsərlərində ətraf mühitin mühafizəsi, flora və fauna, təbiətə qayğıkeş münasibətlə bağlı yetərincə məlumat vardır. Müasir dövrdə böyüyən nəsli milli mənəvi dəyərlərimizə məhəbbət ruhunda tərbiyələndirmək, məktəbliləri ətraf mühitin mühafizəsinə istiqamətləndirmək qarşıda duran çox mühüm vəzifələrindəndir. Bu vəzifələr sırasında şagirdləri əvəzsiz və bənzərsiz milli dəyərlərimizdən sayılan etnopedaqoji materiallarla yaxından tanış etmək böyük əhəmiyyət daşıyır. Ona görə də bütün sosial-iqtisadi formasiyalar dövründə ulu babalarımız, ağbirçək nənələrimiz təbiətə qayğı ilə yanaşmaqla, bitkiləri, meşələri, çayları, gölləri, dağları, düzləri mühafizə etməklə, ətraf mühitin saflığının qorunması ilə bağlı faydalı fikirlər irəli sürmüş, öyüdlər, nəsihətlər və dəyərli tövsiyələr vermişlər. Hazırda ümumtəhsil məktəblərində kiçikyaşlı məktəblilərin ekoloji tərbiyəsi, xüsusilə onların Azərbaycanın flora və faunasına, ekoloji mühitə həssas və qayğıkeş münasibətlərinin formalaşdırılmasına müsbət təsir göstərən müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlər arasında “Ekoloji problemlər”, “Ekologiyamızı qoruyaq”, “Təbiətə həssas və qayğıkeş münasibət bəsləyək”, “Hidrosferimizi ekoloji bəlalardan qoruyaq”, “Biosferimizin saflığını mühafizə edək”, “Atmosferin çirklənməsinə qarşı mübarizə”, “Yaşıl evimizi mühafizə edək,” Təbiətə subyektiv münasibət", “Zorakılıq təbiətə münasibət forması kimi”, “İnsanın, cəmiyyətin və təbiətin qarşılıqlı əlaqəsi”, “Birgə təkamül mədəniyyəti və ətraf mühit təhsili”, "Təbiət ümumbəşəri dəyər kimi” adı altında keçirilən tədbirləri xüsusi qeyd edilə bilər. Bu kimi tədbirlərə kiçikyaşlı məktəblilərin də dəvət olunması məqsədəuyğundur. Xüsusilə III və IV sinif şagirdlərinin bu tədbirlərə cəlb edilməsi və həmin tədbirlərdə fəal iştirak etmələri məqalədə nəzərdən keçirdiyimiz problemin müvəffəqiyyətli həlli baxımından mühüm əhəmiyyətə malikdir. İkinci bir tərəfdən, belə tədbirlərdə iştirak edən şagirdlər bir sıra ekoloji problemlərlə bağlı məlumatlar alır, ekoloji bəlalardan xəbərdar olurlar. Suyun, torpağın, havanın çirklənməsinə qarşı mübarizə aparmaqla bağlı zəruri tədbirlər planları ilə tanış olurlar.

Belə tədbirlərin kütləviləşdirilməsi zamanı hidrosferin, biosferin, atmosferin, eləcə də yaşıl evimizin müdafiəsi ilə bağlı kiçikyaşlı məktəblilərə verilən məlumatların didaktik məzmun kəsb etməsinə də diqqət yetirmək lazım gəlir. Bu zaman suyun insan həyatında bənzərsiz rola malik olması ilə bağlı yazılı ədəbiyyatdan götürülən materiallarla şagirdlərin tanış edilməsinin əhəmiyyəti böyükdür. Məsələn "Dədə Qorqud" dastanlarında Qazan xanın "Su haqqı" deməsi, yəni suya and içməsi Qədim Türk tayfalarının, o cümlədən qədim azərbaycanlıların suyu müqəddəs hesab etmələri ilə bağlı məlumat alan məktəblilər suyu qənaətlə işlədir, boş yerə axıb getməsinə yol vermirlər.

Vaxtilə övladı olmayan qadınlar Azıx mağarasına gedərək mağaranın tavanından damcı-damcı axan suyu içir, oğul-uşaq sahibi olacaqlarına ümid bəsləyirdilər. Suya belə inam bəslənilməsi Azərbaycanın bütün bölgələrində insanların suyun müqəddəsliyinə, paklığına, insan həyatında oynadığı bənzərsiz rola malik olması kimi informasiyalarla kiçikyaşlı məktəblilərin tanış edilməsi onların suya olan inam hissini artırmış olur. Beləliklə, kiçikyaşlı məktəblilər təbiətdə suya həssas və qayğıkeş münasibət bəsləməyi öyrənirlər. Kiçikyaşlı məktəblilərə verilən belə informasiyalar içərisində insanların bioloji ehtiyaclarının ödənilməsi üçün gündə, təxminən, 2-2,5 litr su qəbul etmələri haqqında məlumat kiçikyaşlı şagirdlər üçün dəyərli məlumat hesab olunur. İbtidai sinif müəllimləri belə informasiyaları həm müvafiq mövzuların tədrisi prosesində, həm də dərsdənkənar tədbirlərdə yeri gəldikcə şagirdlərə çatdırmaqla onların ətraf mühitin saflaşdırılmaısna olan həssas və qayğıkeş hislərini gücləndirirlər.

Sinifdənxaric və məktəbdənkənar tədbirlərdə hər iki istiqamətdə şagirdlər informasiyalar alırlar. Ona görə də şagirdlərin təbiətə həssas və qayğıkeş münasibət bəsləməklə bağlı bu tədbirlərə cəlb olunmasına xüsusi diqqət yetirmək lazımdır. Biz sinifdənxaric və məktəbdənkənar tədbirlər deyəndə iki istiqamət üzrə görülən işləri nəzərdə tuturuq. Sinifdənxaric işlər deyəndə, məktəb daxilində təlimdənkənar vaxtlarda Azərbaycanın flora və faunası, təbiəti, ekoloji tərbiyə ilə bağlı həyata keçirilən tədbirlər nəzərdə tutulur. Məktəbdənkənar işlər deyəndə isə, məktəbdən kənarda mövcud olan uşaq təşkilatları, ekologiya klubları, təbiəti mühafizə mərkəzləri, ekoloji bəlalara qarşı mühafizə studiyaları, uşaq və gənclər təşkilatları nəzdində fəaliyyət göstərən "Təbiəti sevərlər" dəstələri anlaşılır. Belə məktəbdənkənar tədbirlərə cəlb olunan ibtidai sinif şagirdləri mövcud ekoloji bəlalarla yaxından tanış olur, onların aradan qaldırılması ilə bağlı mübarizə tədbirlərində yaxından iştirak edirlər. Bu kimi tədbirlər kiçikyaşlı məktəblilərin ətraf mühitə həssas və qayğıkeş münasibət bəsləmələrinə imkan verir.

Məktəbdənkənar tədbirlərdə kiçikyaşlı məktəblilər bəşəriyyətin "Yaşıl evi" haqqında da maraqlı məlumatlar əldə edirlər. Bu baxımdan qeyd etməliyik ki, bəşəriyyətin "Yaşıl evi" sayılan Yer kürəsində torpaq, hava, su çirklənmiş, min hektarlarla meşələr qırılmış, dəniz və okeanların suyu çirkləndiyindən onların flora və faunasına ciddi ziyan vurulmuşdur. Eyni zamanda çayların məcraları dəyişdirildiyindən, üzərində bəndlər salındığından bəzi balıq növlərinin kökü kəsilmiş, qurudulan bataqlıqların, qırılan meşələrin səbəbindən canlı aləmə hədsiz ziyan dəymiş, nüvə sınaqları, kosmik peyklər, istifadə edilən freon qazı ozon qatını zəiflədərək yerdə radiasiyanın çoxalmasına səbəb olmuşdur. Bütün bunlar isə bir sıra sağalmaz xəstəliklərin törəməsi ilə nəticələnmişdir.

**Nəticə**

Sinifdənxaric tədbirlərdə bu kimi məlumatların verilməsi kiçikyaşlı məktəbliləri ölkəmizdə baş verən ekoloji fəlakətlərlə yanaşı, beynəlxalq miqyasda baş verən ekoloji fəlakətlərlə də mübarizə aparmağa hazırlayır. Onlar dünyadakı ekoloji mühiti özlərinin yaşıl evi kimi qəbul edir və həmin yaşıl evi qorumaq uğrunda mübarizəyə hazır olduqlarını bəyan edirlər. Ekoloji böhranın aradan qarldırılmasının zəruriliyini, ekologiyanın qayğısına qalmağın vacibliyini anlayan kiçikyaşlı məktəblilər yaşıllıqları, çəmənlikləri, bağları, bağçaları, çayları, su hövzələrini, bulaqları göz bəbəkləri kimi qorumağa başlayır, onları çirklənməyə qoymur, mühafizəsi qayğısına qalırlar. Şagirdlərə ekoloji mühit, ekoloji tərbiyə, flora və faunamızın zənginliyi, təbiətimizin gözəllikləri ilə bağlı verilən məlumatlar onlara təbiətə həssas və qayğıkeş münasibət bəsləməyi öyrədir. İbtidai sinilərdə öyrəndikləri isə onların gələcəkdə ekoloji mühitin qorunması sahəsində sağlam ruhlu vətəndaşlar kimi yetişmələrinə şərait yaradır. Şagirdləri Azərbaycanın flora və faunası, ekoloji durumu ilə bağlı nəzəri məlumatlarla silahlandırmaq üçün sinif müəllimləri də maariflənməyə cəlb edilməlidirlər. Onlar sinifdənxaric tədbirlərdə şagirdləri bilik, bacarıq, vərdişlər sistemi ilə təmin edərkən onlara hərtərəfli dünyagörüşü aşılamağı da bacarmalıdırlar. Bu, onların ən ümdə vəzifələrindən sayılır. Müəllimlər sinifdənxaric tədbirlər zamanı nəzəri məlumatlar hazırlamaqla məktəbliləri flora və faunamıza, təbiətə həssas və qayğıkeş münasibətə alışdırarlar. Bunun üçün onlar mövcud ədəbiyyatdan bitki və heyvanat aləmi, ekologiya, ekoloji tərbiyə ilə bağlı nəzəri məlumatları seçib quruplaşdırmalıdırlar. Bu zaman məlumatlar seçilib qruplaşdırarkən ibtidai sinif şagirdlərinin yaş xüsusiyyətləri və qavrama qabiliyyətləri nəzərə alınmalıdır.